Türk Dünyası Araştırmaları

TDA

Eylül - Ekim 2022

Cilt: 132 Sayı: 260 Sayfa: 79-90

Makale Türü: Araştırma

# KONTİNUİTET VƏ YA BEYNƏLXALQ HÜQUQ SUBYEKTLİYİNİN İDENTİKLİYİ

**Saftar RAHİMLİ***

***Öz***

*Makalede süreklilik veya uluslararası hukuk kişiliğinin kimliği konusu incelenecektir. Devletin kimliği ve sürekliliği konusunda süre hususu yalnız siyasi önem taşıyabilir. Onun hukuki önemi yoktur. Bir devletin kimliği ve sürekliliğinin kabulüne ilişkin olarak uluslararası hukukta kesin kural yoktur. Eğer süreklilikte süreye ilişkin kıstasları belirlemeye çalışırsak o zaman: "sürgün hükumetinin" varlığı ve onun mücadelesi, uluslararası birliğin ayrı ayrı devletlerin kanuna aykırı ilhaka negatif yaklaşımı ve ilhak edilen toprakların halkının devamlı siyasi askeri yaklaşımı dikkate alınmalıdır. Halkın yaklaşımı, onun gizli ve açık siyasi teşkilatlanması, bağımsızlık savaşı uluslararası hukuk kimliği anlamında öncekinin bütün parametreleri ile "aynı" olmasa da "onun gibi" devletin sürekliliği için en önemli kıstas olur. Önceki devletle onarılan devlet arasında kimliği aynılaştırma şartı ve halkın önceki devletin sürekliliğe ili*şkin anayasal beyanı da önemli şartlardan sayılmalıdır.

***Anahtar Kelimeler:*** *Uluslararası Hukuk, süreklilik, devletin kimliği, sürgün hükumeti, ilhak, kendi mukadderatını belirleme, kanunsuz birleştirme, Viyana Sözleşmesi, Azerbaycan Halk Cumhuriyeti.*

***Xülasə***

*Məqalədə kontinuitet və ya beynəlxalq hüquq subyektliyinin identikliyi məsələsi tədqiq edilir. Qeyd edilir ki, dövlətin identikliyi və kontinuiteti məzmununda müddət məsələsi yalnız siyasi əhəmiyyət kəsb edə bilər. Onun hüquqi dəyəri yoxdur. Bir dövlətin identikliyi və kontinuitetinin qəbul edilməsinə münasibətdə iddia müddəti ilə bağlı beynəlxalq hüquqda konkret qayda yoxdur. Əgər kontinuitetlə bağlı müddət məsələsində meyarları müəyyən etməyə çalışsaq o halda: "sürgün hökumətinin" mövcudluğu və onun mübarizəsi; beynəlxalq birliyin, ayrı-ayrı dövlətlərin qanunsuz ilhaqa neqativ münasibəti; və qanunsuz ilhaq edilmiş ərazinin xalqının davamlı siyasi-hərbi mövqeyi*

Geliş Tarihi: 4 Haziran 2022 - Kabul Tarihi: 24 Ekim 2022.

Atıf Bilgisi: Saftar Rahimli, "Süreklilik veya Uluslararası Hukuk Kişiliğinin Kimliği", *Türk Dünyası Araştırmaları,* Cilt 132, Sayı 260, İstanbul 2022, s. 79-90, doi: 10.55773/tda.1126073.

* Bakü Devlet Üniversitesi, İnsan Hakları ve Bilişim Hukuku UNESCO Bölümü, Azerbaycan, sefterrehimli@yahoo.com, ORCID ID: 0000-0002-1724-8622.

*diqqətə alınmalıdır. Xalqın mövqeyi, onun gizli və açıq siyasi təşkilatlanması, müstəqillik mübarizəsi identiklik anlamında əvvəlkinin bütün parametrləri ilə "eyni ilə" də olmasa, "onun kimi" dövlətin kontinuitet üçün başlıca meyar olur. Əvvəlki dövlət ilə bərpa edilən dövlət arasında daxili özünü (identiklik) eyniləşdirmək şərti və xalqın əvvəlki dövlətin kontinuitet üzrə konstitusion bəyanı da əsas şərtlərdən sayılmalıdır.*

***Açar Sözlər:*** *beynəlxalq hüquq, kontinuitet, dövlətin identikliyi, sürgün hökumət, ilhaq, öz müqəddəratını təyin etmə, qanunsuz anneksiya, Vyana Konvensiyası, Azərbaycan Xalq Cümhuriyyəti.*

***Identity Of Continent Or Subject Of International Law***

***Abstract***

*The article will examine the issue of continuity or the identity of the personality of international law. Regarding the identity and continuity of the state, the issue of duration can only be of political importance. It has no legal significance. There is no definite rule in international law regarding the recognition of the identity and continuity of a state. If we try to determine the criteria for duration in the continuum, then: the existence of the "government of exile" and its war, the negative approach of the international union to the unlawful annexation of individual states, and the continuous political military approach of the people of the annexed territories must be considered into account. Although the approach of the people, its secret and open political organization, the independence war is not "the same" with all the parameters of the previous one in terms of international legal identity, "like him" becomes the most important criterion for the continuity of the state. The condition of identifying identity between the previous state and the restored state and the constitutional declaration of the people regarding the continuity of the previous state should also be considered as important conditions.*

***Keywords:*** *International Law, Continuity, State Identity, Exile Government, Annexation, Self-determination, Illegal Annexation, Vienna Convention, Azerbaijan Democratic Republic.*

## Məsələnin Araşdırılması

Beynəlxalq hüquq subyektliyinin identikliyi (eyniliyi) dövlətin kontinuiteti (davamlılığı) üçün xüsusi əhəmiyyət kəsb edir. İdentiklik dövlətçilikdə Hegel konsepsiyası ilə əlaqələndirilməkdədir.[1] Beynəlxalq hüquq subyektliyinin identikliyi və kontinuitetin mahiyyəti ilə əlaqəfə mövqelər mövcuddur. Baxmayaraq ki, doktrinada onların sinonim anlayışlar olması haqqında fikirlər daha çox üstünlük təşkil etməkdədir. K. Marek qeyd edir ki, hüquq subyektliyinin identikliyi olmadan kontinuitet haqqında və əksinə kontinuitet olmadan hüquq subyektliyinin identikliyi haqqında danışmaq olmaz.[2] H. Kelsen də bu mövqeyə yaxın fikir ifadə etmiş, kontinuiteti hüquq subyektliyinin zamandakı identikliyi olaraq dəyərləndir-

[1] Ineta Ziemele, *State Continuity and Nationality: The Baltic States and Russia. Past, Present Future as Defined by International Law*, MartinusNijhoof Publishers, Leiden, 2005, s. 424.

[2] K. Marek, *Identity and Continuity of States in International Law*, 2nd ed., E. Dros, Geneve 1968, s. 15.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2022
EYLÜL - EKİM
CİLT: 132 SAYI: 260
SAYFA: 79-90

mişdir.[3] Prof. J. Krauford isə dövlətlərin davamlılıq anlayışının beynəlxalq hüquq üçün əhəmiyyətindən bəhs edərkən "davamlılıq və ya eynilik" kateqoriyalarını sinonim kimi ifadə etmişdir.[4] J. Krauford qeyd edir ki, beynəlxalq hüquqda oxşar hüquq subyektinin "dirilməsinin" fərqli növü kimi kontinuitetsiz beynəlxalq hüquq subyektliyinin identikliyi mümkündür.[5] Əlbəttə müəyyən hallarda praktik olaraq onlar arasında fərq təetməyəbilər. Məsələn, S. Çerniçenkonun qeyd etdiyi kimi dövlətin ərazisinin tam işğal edilməsi nəticəsində dövlət müvəqqəti olaraq özünün şəxsiyyətini itirirsə və beynəlxalq birlik hesab edirsə ki, o özünün suverenliyini və beynəlxalq hüquq subyektliyini saxlamaqdadır, ərazisini işğaldan qurtarması və özünün şəxsiyyətini bərpa etməsi o deməkdir ki: birincisi, yuridik olaraq onun fasiləsizliyi ilə kontinuiteti mövcuddur vəikincisi, bərpa edilən dövlət işğaldan əvvəlki dövlətin identikidir.[6] Praktik olaraq Avstriya, Albaniya və hətta Həbəşistanı nümunə gətirən Prof. J. Brounli qeyd edir ki, bu halda da işğaldan əvvəlki dövlətlərin bərpasından, başqa sözlə şərti kontinuitetdən bəhs etmək lazımdır.[7]

İşğalın uzanması halında bərpa edilən dövlətin sosial, inzibati quruluş – idarəçilik formasında dəyişikliyin yaranması ilə fərqliliklər meydana gələ bilər. Bu halda da daxili dəyişikliklər onun beynəlxalq hüquq subyektliyinə təsir etmir. Beynəlxalq hüquq subyektliyinin identikliyi (eyniliyi) dövlətin kontinuitetində müəyyənedici kateqoriyadır. Dövlətin anlayışı üzrə Montevideo Konvensiyasında da ifadə edilən əhali əlaməti ilə birbaşa bağlıdır. Müvafiq əhalini formalaşdıran xalqın özünü təyin haqqı ilə əlaqəlidir. Dövlətin təcavüzə məruz qalması onun əhalisinin identikliyinə və dəyərlərinə birbaşa təsir edir. Qeyd edildiyi kimi identiklik nə qədər güclüdürsə dövlətçilik də bir o qədər sabit olur.[8] Kontinuitetsiz beynəlxalq hüquq subyektliyinin identikliyinin mahiyyəti ondan ibarətdir ki, bərpa edilən dövlətin identikliyi tanınma institutundan, digər dövlətlərin siyasi maraqlarından asılı edilir. Məsələn, 1795-ci ildə Polşanın bölünməsi ilə siyasi müstəqilliyin itirilməsi və yalnız 123 il sonra 1918-ci ildə dövlətçiliyin bərpa edilməsi Polşa məhkəmələri tərəfindən əvvəlki dövlətin beynəlxalq hüquq subyektliyinin identikliyinə əsaslanmalarına maneə olmamışdır.[9] Baxmayaraq ki, bu identiklik xarici tərəfdaşlar tərəfindən qəbul edilməmişdir. Başqa bir halda, 1935-ci ildə faşist İtaliyası Həbəşistanı qanunsuz ilhaq etmiş, qısa bir müddətdən sonra, 1940-cı ildə Almaniya-İtaliya ittifaqına qarşı olan Müttəfiqlər bu ilhaqı qəbul etməmişlər. İngiltərənin Həbəşistanı qa-

[3] Hans Kelsen, *Principles of International Law*. 2nd ed. New York, 1967, 384.

[4] James Crawford, *The Creation of States in International Law*, 2nd ed., Oxford University Press, Oxford, 2006, s. 30.

[5] A.e., s. 403.

[6] S. V. Chernichenko, *Teoriya Mejdunarodnoqo Prava*, V 2-x tomax. Tom 2: Starie i novie teoriticheskie problemi, M: İzdatelstvo "NİMP", 1999, s. 69.

[7] Ian Brownlie, *Principles of Public International Law*, 6th ed., Oxford University Press, Oxford, 2003, s. 80- 81.

[8] Ziemele, *a.e.*, s. 142.

[9] Republic v. Felsenstadt. 1922, I AD, No.16

nunsuz ilhaqdan azad etməsi ilə onun 1935-ci ildən əvvəlki beynəlxalq hüquq subyektliyinin identikliyi qəbul edilmişdir. II Dünya müharibəsindən sonra (1947) Müttəfiqlər ilə İtaliya arasında bağlanılan müqaviləyə görə Həbəşistanın əvvəlki statusu tam bərpa edilmişdir. Bu halda üçüncü dövlətlərin hüquqi mövqeyi Həbəşistanın qanunsuz ilhaqdan əvvəlki statusunun bərpası, onun identikliyi üçün əhəmiyyətli olmuşdur.

Üçüncü dövlətlərin siyasi maraqları mütləq halda könüllü birləşmə və ya ayrılma (məsələn, Suriya və Misirin birliyi kimi 1958-1961-ci illərdə mövcud olmuş Birləşmiş ərəb Respublikası) halını işğala məruz qalmış (məsələn, Avstriyanın, Çexoslovakiyanın, Baltikyanı dövlətlərin, Azərbaycan və Gürcüstanın və d.) haldan fərqləndirməlidir. Beynəlxalq hüquq subyektliyinin identikliyi və-kontinuiteti üçüncü dövlətlərin siyasi maraqlarından asılı edilsə də bu sahədə ümumtanınmış normalar mövcuddur. Beynəlxalq hüquq subyektliyinin identikliyinin əsası kimi məhz xalqın özünü təyin haqqı üzrə ümumtanınmış normalar çıxış edir. Bu normalar həm Millətlər Liqasının Statutunda, həm də BM Nizamnaməsi və ona uyğun qəbul edilmiş beynəlxalq hüquq aktlarında təsbit edilib. Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının preambulası iştirakçı dövlətlər üçün BM Nizamnaməsində ifadə edilən beynəlxalq hüququn *bərabərhüquqluluq* və *xalqların öz müqəddəratını təyin etmə*, bütün *dövlətlərin suveren bərabərliyi və müstəqilliyi, dövlətlərin daxili işlərinə qarışmamaq, güclə hədələməmək və ya onun tətbiqinin qadağan edilməsi və hamı üçün insan hüquqları və əsas azadlıqlarının gözlənilməsi və ona ümuməhatə hörmə*ti, həmçinin *sabitliyi və təhlükəsizliyi təmin etmək* üzrə qaydanı ehtiva edir. Dövlətin beynəlxalq hüquq subyektliyi onun şəxsiyyəti ilə əlaqəlidir. Beynəlxalq hüquqda təcavüz və ya güc tətbiqi ilə hədələmək və d. prinsiplərin pozulması nəticəsində ilhaq baş verirsə dövlətin beynəlxalq hüquq subyektliyi faktiki olaraq kəsilmiş olur. İlhaq baş verirsə dövlətin beynəlxalq hüquq subyektliyi formal olaraq kəsilməyə bilər. Belə ki, əgər ilhaqa məruz qalmış dövlətin hökuməti “sürgündə” mühacir qismində fəaliyyətini davam etdirirsə dövlətin beynəlxalq hüquq subyektliyi formal olaraq mövcudluğunu saxlamış olur. Bu halda dövlətin suverenliyinin, onun beynəlxalq hüquq subyektliyinin faktiki kəsilməsi baş versə də (*bərabərhüquqluluq* və *xalqların öz müqəddəratını təyin etmə hüququ* əsasında) xalqın suverenliyi və dolayısı ilə hakimiyyət iradəsinin kontinuiteti mövcud olur. Gücün tətbiqi və ya güclə hədələmək nəticəsində törədilən ilhaq sonradan bərpa prosesində identikliyə əsas sayılmalıdır. Məsələn, 1938-ci ildə Avstriyanın suverenliyinin kəsilməsi Almaniyanın ultimatumu ilə baş verir. Eyni hal Latviya, Litva və Estoniyaya qarşı SSRİ tərəfindən həyata keçirilir. Rusiya üçün bu gün də xarakterik olan qanunsuz anneksiya əsasən iki yolla həyata keçirilmişdir. Bir halda (1920-ci ildə, məsələn, Azərbaycan Xalq Cümhuriyyətinə və Gürcüstana qarşı törədilən) açıq hərbi təcavüzlə, digər halda beynəlxalq hüquqa zidd olaraq (məsələn, Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasında (m.53)[10] ifadə edildiyi kimi) güc tətbiqi

[10] Vienna Convention on the Law of treaties (1969), https://legal.un.org/ilc/texts/instruments/english/conventions/1_1_1969.pdf, (11.05.2022, çevrim içi).

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2022
EYLÜL - EKİM
CİLT: 132 SAYI: 260
SAYFA: 79-90

ilə təhdid edərək özü üçün əlverişli beynəlxalq anlaşma bağlamağa məcbur etməklə təmin edilmişdir. Həm Avstriyanın, həm də Latviya, Litva və Estoniyanın suverenliyinə qəsd ikinci hala uyğun təmin edilmişdir. Almaniyanın 1 sentyabr 1939-cu ildə Polşanı işğalından sonra SSRİ (bu günlərdə olduğu kimi Rusiyanın Ukraynaya təcavüzünü "əsaslandırmaq" üçün irəli sürdüyü siyasi arqumentlər) özünün təhlükəsizliyini (BM Baş Məclisinin Təcavüzün tərifi üzrə 1974-cü il Qətnaməsində təsbit edilən "hər hansı siyasi, iqtisadi...və s. arqument hərbi qüvvənin tətbiqinə əsas ola bilməz" normasının[11] əksinə) təmin etmək adı altında Baltikyanı dövlətləri də ilhaq etmək qərarına gəlir. O dövrdə Estoniyanın Moskvadakı səfiri olmuş A. Rey qanunsuz ilhaqı təmin edəcək siyasəbəhs edərkən qeyd edir ki, SSRİ xarici işlər naziri Molotov bildirdi ki, sovet hökumətinin özünün təhlükəsizliyini təmin etmək üçün *daha radikal metodlara* əl atmaması üçün sizdən xahiş edirəm... əgər Estoniya hökuməti Sovet İttifaqının təklifini rədd edərsə, o halda SSRİ *digər vasitələrə (hərbi güc nəzərdə tutulur-müəll.)* müraciət etməklə özünün məqsədinə nail olacaqdır.[12] Hərbi gücün tətbiqi təhdidi altında hər üç dövlət 1939-cu ildə SSRİ ilə Qarşılıqlı yardım haqqında Müqavilə bağlamaq məcburiyyətində qalırlar. Müasir beynəlxalq hüququn "güc tətbiq etməmək və güclə hədələməmək" norması I Dünya müharibəsinin sonundan Millətlər Liqasının Statutunun 10-cu maddəsindən başlayaraq dövlətlərin suverenliyinə hörmət edilməsi prinsipinin bəyan edilməsi ilə *opinio juris* xarakteri əldə etmişdir. Buna baxmayaraq bəzi rus müəllifləri[13] Versal sisteminin dövlətlərin suverenliyinə hörmət edilməsi qaydasını qəbul etmək istəmir, XX əsrin 20-ci illərindən Rusiyanın qanunsuz ilhaqlarına haqq qazandırmağa çalışırlar. Məlumdur ki, müasir BM-də də olduğu kimi Millətlər Liqasının da təhlükəsizlik mexanizmi prosessual baxımdan effektli olmamışdır. Lakin maddi hüquq anlamında dövlətlərin suverenliyinə hörmət edilməsi qaydası beynəlxalq hüquq əxlaqını təsis etmişdir. Beynəlxalq hüquq korifeylərindən L. Oppenheym, A. Verdros, M. Akehursi qeyd edirlər ki, digər dövlətin ərazisinin ilhaqının qanunsuz sayılması Millətlər Liqasının Statutunun qəbulundan başlayır və 1928-ci il Brian-Kelloq Paktı ilə daha da möhkəmləndirilmişdir. Qanunsuz anneksiya ərazisi işğal edilən dövlətin beynəlxalq hüquq subyektliyinin ləğvinə səbəb olmurdu.[14] Bunun nəticəsidir ki, gücün tətbiqi ilə qurulan yeni hakimiyyətin bütün tədbirləri, o cümlədən keçirilən referendumlar hüquqi əhəmiyyət kəsb etməmişdir. Müəyyən müddət keçdikdən sonra xalqın ilhaq rejiminə "uyğunlaşması" da beynəlxalq hüquq baxımından prosesin qanunsuzluğunu aradan qaldırmır. Ona görə də qanunsuz anneksiya edilən ərazinin əhalisi özünün dövlətini yenidən bərpa

---

[11] UN General Assembly Resolution 3314. https://www.un.org.aggression, (11.05.2022, çevrim içi).

[12] August Rei, *Nazi-Soviet Conspiracy and the Baltic States: Diplomatic Documents and Other Evidence*, Boreas Publishing, London, 1948, s. 41.

[13] Chernichenko, a.e., s. 73- 74.

[14] Robert Jennings; Arthur Watts (edts), Oppenheim's International Law, Vol. 1: Peace, Oxford University Press, Oxford, 1949, s. 158; A. Ferdros, Mejdunarodnoe Pravo. Podred. Q. İ. Tunkina. Perevodsnemechkoqo, M.: İL, 1959, s. 233; Peter Malanczuk, *Akehurst's Modern Introduction to International Law*, Routledge, London 1984, s. 146.

etməklə, həm də özünün kontinuitetini təmin edir. Burada əvvəlki ilə bərpa edilən arasında *daxili özünü eyniləşdirmək* prosesi həlledici şərtdir. Dövlətin şəxsiyyəti adətən konstitusiya səviyyəsində həll edilir və dövlətin identikliyinin konstitusiya əsası onun beynəlxalq hüquq formasını da müəyyən etməlidir. Dövlətin identikliyinin konstitusiya əsasları vətəndaşlıq, konstitusion siyasi, iqtisadi, humanitar və d. dəyərləri təsbit edirsə, beynəlxalq hüquqi identiklik isə beynəlxalq hüquq və vəzifələrlə xarakterizə edilir. Qəbul edilmiş əvvəlki beynəlxalq hüquq və vəzifələrə, o cümlədən dövlətin hüquqi statusuna, bəyan edilmiş hüquq siyasətinə, insan hüquqlarına bağlılıq və d. məsələlər beynəlxalq hüquqi identikliyi təmin edir.

Əhalinin (xalqın) konstitusiya səviyyəsində bəyan edilən mövqeyi onun bərpa edilən dövlətinin əvvəlkinin beynəlxalq hüquq subyektliyinin kontinuitetini və identikliyini təmin edir. Baltik dövlətlərindən Latviyanın 1990 və 1991-ci illərdə bu istiqamətdə bir neçə dəfə konstitusiya səviyyəsində bəyanları olmuşdur. 4 may 1990-cı il Müstəqillik Bəyannaməsi və 21 avqust 1991-ci il Konstitusiya qanunu 1922-ci ildə qəbul edilən Konstitusiyanın və müvafiq Latviya Respublikasının bərpa edildiyini bəyan edir.[15] Baltikyanı dövlətlərdən Estoniya da 1992-ci ildə konstitusiya (preambula) səviyyəsində bəyanı ilə 1918 - ci il 24 fevralda təsis edilən Estoniyanın identiki olduğunu ifadə etmişdir. Qeyd edilir ki, müasir Estoniya Respublikası beynəlxalq hüquq subyekti kimi 1940-cı ildə SSRİ-nin təcavüzünə məruz qalmış və qanunsuz olaraq SSRİ-nin tərkibinə daxil edilmişdir.

Çox təəssüf ki, Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında 18 oktyabr 1991-ci il Konstitusiya Aktında Azərbaycan Respublikasının identikliyi Baltikyanı dövlətlərdə olduğu kimi terminoloji baxımdan daha dəqiq təsbit edilməmişdir. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktında birbaşa varisliyə (m. 2) istinad edilsə də Aktın ümumi məzmunundan yaranan nəticə ondan ibarətdir ki, müasir Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin davamçısıdır, yəni ən azından kontinuitetsiz identiklik konsepsiyası diqqətə gəlir. Xüsusən də, 1-ci maddədə ifadə edilən "*1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Demokratik Respublikasını devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi (kurs-müəll.) hesab edilsin*" fikri, həmçinin "*SSRİ-nin təşkili haqqında 1922-ci il 30 dekabr tarixli müqavilənin Azərbaycana aid hissəsi imzalandığı andan etibarsız...*"[16] hesab edilməsi üzrə 3-cü maddəsi identiklik üçün tam əsas yaratmaqdadır.

İfadə etdiyimiz Konstitusiya Aktlarından da göründüyü kimi xalqın konstitusiya iradəsinin davamlılığı onun əvvəlki dövlətlə sonradan bərpa

---

[15] The Declaration "On the Restoration of Independence of the Republic of Latvia, https://likumi.lv/ta/en/en/id/75539, (11.05.2022, çevirim içi)

[16] Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı, https://e-qanun.az/framework/6693, (11.05.2022, çevirim içi).

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2022
EYLÜL - EKİM
CİLT: 132 SAYI: 260
SAYFA: 79-90

edilən dövlətin beynəlxalq hüquq subyektliyinin identikliyi üçün də əsas olur. Beynəlxalq hüquq səviyyəsində həmin dövlətin eyni statusda çıxışı üçün iddiasının da təminatlandırılmasına yol açmalıdır. Müvafiq dövlətin beynəlxalq hüquq subyektliyinin identikliyi üzrə konstitusiya bəyanı bütün siyasi sui-istifadələri qapatmalı, digər dövlətlər beynəlxalq hüquq subyektliyinin identikliyi üzrə konstitusiya bəyanına "dövlətlərin suveren bərabərliyi" prinsipi kontekstində münasibət göstərməlidirlər. Yəni konstitusiya bəyanı kontinuiteti və uyğun olaraq identik dövlət statusunu müəyyən edir. Əvvəlki dövlətin şəxsiyyətinin bərpası qaydası həmin xalqın subyektiv marağına tabedir. Dövlətin Montevideo Konvensiyasındakı əhali (xalq) əlaməti bərpa edilən dövlətin yalnız daxili atributlarını deyil, həm də beynəlxalq hüquq subyektliyini müəyyən etmək xüsusiyyətini daşımaqdadır. Qanunsuz ilhaq zamanı uzun zamanda kontinuitetin qırılması ilə dövlət aparatında dəyişikliyin olması istisna deyil. Lakin hakimiyyətin daşıyıcısı xalq olduğu üçün əvvəlkinə bənzər (identik) oxşar dövlətin də yaradılması iradə bəyanından asılıdır. Ona görə də J. Brounli "dövlətin şərti kontinuitet" terminini[17] istifadə etmişdir. S. Cernicenko qeyd edir ki, semantik olaraq identiklik (oxşarlıq) "onun kimi", "eyni ilə" mənasına malikdir. Əgər kontinuitet varsa demək ki, həmin beynəlxalq hüquq subyektindən söhbət gedir. Bu halda kontinuitet və identiklik üst-üstə düşür. Əgər kontinuitet qırılıbsa o zaman beynəlxalq hüququn "həmin" subyektindən deyil, "onun kimi" subyektindən bəhs edilməli. Müəllif fikrinə davam edərək qeyd edir ki, beynəlxalq hüquq subyektliyi dövlətçiliyə deyil, dövlətə aiddir.[18] Lakin bu fikir də normativizmi ehtiva etməkdədir. J. Krouford da ayrı-ayrı hüquqların, öhdəlik və səlahiyyətlərin dövlətçiliyə aid olmasına vurğu edir ... və qeyd edir ki, əvvəlki hüquq münasibətlərinin bərpasından asılı olmayaraq beynəlxalq hüquq subyektliyinin identikliyi mövcud ola bilər.[19] Bu zaman müstəqil şəxsiyyət elementlərini itirmiş əvvəlki beynəlxalq hüquq subyektliyinin hüquq münasibətləri üçün gətirdiyi hüquqi yükü qəbul edib-etməmək müvafiq əhalinin (xalqın) biləcəyi məsələdir. Bir çox beynəlxalq hüquq aktları da (məsələn, Mülki və siyasi hüquqlar üzrə 1966-cı il beynəlxalq Pakt, Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının preambulası) *xalqın* hüquq subyektliyinə istinad etməkdədir. Uzun müddətli ilhaqdan sonra belə dövlətin bərpası, həm də əsasən eyni ərazi, dövlət simvolları, idarəçilik forması, inzibati quruluş, hüquqlar və beynəlxalq öhdəliklər üzrə konstitusion prinsiplər yenidən əvvəlki kimi bərpa edilirsə deməli dövlətin kontinuiteti itməmişdir. Bu zaman əvvəlki dövlətin beynəlxalq öhdəliklərinin implementasiyası onun kontinuitetinin üçüncü dövlətlərin tanımasına da təsir etməməlidir.

Qanunsuz ilhaq zamanı kontinuitetin qırılmasını və ən yaxşı halında oxşar dövlətin yaradılması konsepsiyasını dəstəkləyən müəlliflər qeyd edir-

---

17 Brownlie, a.e., s. 80- 81.

18 Chernichenko, a.e., s. 70.

19 Crawford, a.e., s. 401- 402.

lər ki, dövlətin identikliyi də şərti xarakter daşıyır. Məsələn, N. V. Zaharova qeyd edirdi ki, insanın özünün həyatı boyunca dəyişilməsi kimi, deyək ki, 200 il müddətində bir və eyni dövlətin şəxsiyyətinin zaman pozuntularına məruz qalmaması mümkün deyil.[20] Beynəlxalq hüquq subyektliyi baxımından şübhəsiz ki, dəyişiklik həmin dövlətin beynəlxalq öhdəliklərini ehtiva etməlidir. Lakin dövlətin kontinuiteti və identikliyi problemi beynəlxalq təhlükəsizlik məzmunu ilə əlaqəli yaranır. Məqsəd hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyin etmə hüququnu təmin etməkdir.

Beynəlxalq hüquq subyektliyinin dəyişikliyə uğraması dövlətçilik ənənələri ilə birbaşa bağlıdır. Dövlətin uzun müddətli itirilməsi dövlətçilik ənənələrinə, beynəlxalq hüquq subyektliyinə təsir etməyə bilməz. Beynəlxalq hüquq subyektliyinin dəyişikliyə uğramasına bir çox faktorlar təsir edə bilər. Bunlardan birincisi isə həmin ərazidəki xalqın dəyişikliyə uğraması, yeni bir mədəniyyətlə dəyişik xalqın meydana gəlməsi ola bilər. Lakin beynəlxalq hüquq subyektliyinin saxlanılması zamanı həlledici mənsubiyyət meyarı (insanların etnik mənsubiyyət müəyyənliyində olduğu) kimi xalqın subyektiv baxışı qəbul edilməlidir. Beynəlxalq münasibətlər üzrə götürülmüş öhdəliklərin digər tərəflərin suveren maraqlarına zidd olmamaq və ümumtanınmış qaydalar çərçivəsində qəbulu bərpa edilən dövləti formalaşdıran xalqın özünü təyin hüququ ilə bağlı məsələdir. Dövlətin hətta uzun müddətli itirilməsi zamanı onun yenidən bərpası kontinuiteti və identikliyi istisna etməməlidir. Yetər ki, müvafiq xalq dövlət təsis etmək qabiliyyətini formalaşdırmış olsun. Buna görə də dövlətin identikliyi və kontinuiteti məzmununda müddət məsələsi yalnız siyasi əhəmiyyət kəsb edə bilər. Onun hüquqi dəyəri yoxdur. Bir dövlətin identikliyi və kontinuitetinin qəbul edilməsinə münasibətdə iddia müddəti ilə bağlı beynəlxalq hüquqda konkret qayda yoxdur. Hələ XIX əsrin əvvəllərində G. Martens qeyd edirdi ki, *müddət hüququ prinsipinin* tətbiqində Avropa dövlətləri qeyri ardıcıllıq göstərməkdədirlər və hər hansı bir ümum qəbul edilmiş zaman müddətləyoxdur.[21] Bir çox xalqlar da kifayət qədər uzun müddətin keçməsinə baxmayaraq dövlətin davamlılığında dayanmışlar. Beynəlxalq hüquqşünaslar müddət hüququndan imtina edilməsi ilə bağlı fikirlər də ifadə edilməkdədir. P. Laski qeyd edir ki, Polşanın (1795-1919) bölgüsündən, həmçinin çoxsaylı üsyanlardan sonra müddət hüququ tətbiq edilə bilməz.[22] Bu nəticə və ya mövqe eyni ilə post sovet məkanında Azərbaycan Xalq Cümhuriyyətinin qanunsuz ilhaqından 70 il,  Latviya, Litva və Estoniyanın qanunsuz ilhaqından 50 il keçməsinə baxmayaraq bu dövlətlərin identikliyi və kontinuiteti üçün əsas sayılmalıdır. P. Laskinin mövqeyindəki əsas arqument ondan ibarətdir ki,

[20] N. V. Zaxarova, *Vliyanie Socialnoy Revolyuchii Na Silu Mejdunarodnoqo Doqovora*, M: Nauka, 1966, 142 s. 81.

[21] G. Martens, *Precis du droit des gens moderne de l"Europe, fonde sur les traites et lusage.* 2 ed. Henri Dietrich, Göttingen, 1801, s. 65.

[22] Piotr Laski, "The Prescription in International Law: Some Remarks", *Polish Year Book of International Law*, Vol. 23, 1997-1998, s. 225.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2022
EYLÜL - EKİM
CİLT: 132 SAYI: 260
SAYFA: 79-90

1) əvvəlki, qanunsuz ilhaq edilmiş dövlət beynəlxalq birliyin digər üzvləri ilə birlikdə qeyri-sabit vəziyyəti göstərməklə və

2) xüsusilə ilhaq edilmiş xalqın üsyanları işğalçının güc tətbiqini davam etdirərək yeni hakimiyyətin dinc davamını qeyri-mümkün etməklə müddətin keçməməsini təmin edir.[23]

Xüsusən də, 1920-ci il işğalından sonra Azərbaycanda qaldırılmış çoxsaylı üsyanlar və onların yatırılması üçün SSRİ-nin kütləvi repressiya və deportasiyaları, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin "sürgün" dövrü Azərbaycan Xalq Cümhuriyyətinin kontinuiteti kimi Azərbaycan Respublikasının identikliyinə əsas verir.

## Nəticə

Təcavüzün nəticəsi kimi qanunsuz ilhaq da beynəlxalq cinayətlərə aiddir və təcavüzkar üçün beynəlxalq hüquqi, planlaşdıran və həyata keçirən şəxslər üçün fərdi cinayət məsuliyyəti yaradır.[24] Beynəlxalq cinayətlərin mühakimə edilməsində müddətin tətbiq edilmədiyi (Müharibə cinayətlərinə və bəşəriyyət əleyhinə cinayətlərə iddia müddətinin tətbiq edilməməsi üzrə 1968-ci il Konvensiyasındakı [9]) qayda qanunsuz ilhaq edilmiş dövlətin kontinuitetinin qırılmamasına münasibətdə qəbul edilməlidir. əgər kontinuitetlə bağlı *müddət məsələsində* meyarları müəyyən etməyə çalışsaq o halda:

1) "sürgün hökumətinin" mövcudluğu və onun mübarizəsi;

2) beynəlxalq birliyin, ayrı-ayrı dövlətlərin qanunsuz ilhaqa neqativ münasibəti; və

3) qanunsuz ilhaq edilmiş ərazinin xalqının davamlı siyasi-hərbi mövqeyi diqqətə alınmalıdır. Hərgah bunlardan da daha əhəmiyyətlisi suverenliyin əsas daşıyıcısı olan qanunsuz ilhaq edilmiş ərazinin xalqının səngiməyən mübarizə mövqeyidir. Belə ki, "sürgün hökumətinin" mövcudluğu müxtəlif (maliyyə, diplomatik və s.) səbəblərdən davam etməyə bilər. Beynəlxalq birliyin, ayrı-ayrı dövlətlərin siyasi maraqları, işğalçı rejimi tanımamaq üzrə etiraz və protestləri də müəyyən bir müddətdən sonra yerini loyallığa verə bilər. Lakin xalqın mövqeyi, onun gizli və açıq siyasi təşkilatlanması, müstəqillik mübarizəsi identiklik anlamında əvvəlkinin bütün parametrləri ilə "eyni ilə" də olmasa, "onun kimi" dövlətin kontinuitet üçün başlıca meyar olur. Qeyd edilənlərlə bərabər əvvəlki dövlət ilə bərpa edilən dövlət arasında daxili özünü (identiklik) eyniləşdirməşərti və xalqın əvvəlki dövlətin kontinuitet üzrə konstitusion bəyanı da əsas şərtlərdən sayılmalıdır.

[23] A.e., s. 225-226

[24] Rahim Kamiloğlu Məmmədov, *Beynəlxalq Cinayət Hüququ və Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyi*, Bakı NAT Co MMC, 2012, s.118-119.

## Ədəbiyyat Siyahısı

Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı, https://e-qanun.az/framework/6693, (11.05.2022, çevirim içi).

BROWNLIE, Ian: Principles of Public International Law, 6th ed., Oxford University Press, Oxford, 2003.

CHERNICHENKO, S. V.:Teoriya Mejdunarodnoqo Prava, V 2-x tomax. Tom 2: Starie i novie teoriticheskie problemi, M: İzdatelstvo "NİMP", 1999, s. 69.

CRAWFORD, James: The Creation of States in International Law, 2nd ed., Oxford University Press, Oxford, 2006.

FERDROS, A.: Mejdunarodnoe Pravo. Podred. Q. İ. Tunkina. Perevodsnemechkoqo, M.: İL, 1959.

JENNINGS, Robert- WATTS, Arthur (edts), Oppenheim's International Law, Vol. 1: Peace, Oxford University Press, Oxford, 1949.

KELSEN, Hans: Principles of International Law. 2nd ed. New York, 1967.

LASKI, Piotr: "The Prescription in International Law: Some Remarks", Polish Year Book of International Law, Vol. 23, 1997-1998, ss.229-228.

MALANCZUK, Peter: Akehurst's Modern Introduction to International Law, Routledge, London 1984.

MAREK K.: Identity and Continuity of States in International Law, 2nd ed., E. Dros, Geneve 1968.

MARTENS, G.: Precis du droit des gens moderne de l"Europe, fonde sur les traites et lusage. 2 ed. Henri Dietrich, Göttingen, 1801.

MƏMMƏDOV, Rahim Kamiloğlu Beynəlxalq Cinayət Hüququ və Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyi, Bakı NAT Co MMC, 2012, s. 118-119.

REI, August: Nazi-Soviet Conspiracy and the Baltic States: Diplomatic Documents and Other Evidence, Boreas Publishing, London, 1948.

Republic v. Felsenstadt. 1922, I AD, No.16

The Declaration "On the Restoration of Independence of the Republic of Latvia, https://likumi.lv/ta/en/en/id/75539, (11.05.2022, çevirim içi)

UN General Assembly Resolution 3314, https://www.un.org.aggression, (11.05.2022, çevrim içi).

Vienna Convention on the Law of treaties (1969), https://legal.un.org/ilc/texts/instruments/english/conventions/1_1_1969.pdf, (11.05.2022, çevrim içi).

ZAXAROVA, N. V.: Vliyanie Socialnoy Revolyuchii Na Silu Mejdunarodnoqo Doqovora, M: Nauka, 1966.

ZIEMELE, Ineta: State Continuity and Nationality: The Baltic States and Russia. Past, Present Future as Defined by International Law, MartinusNijhoof Publishers, Leiden, 2005.

TÜRK DÜNYASI ARAŞTIRMALARI / TDA
2022
EYLÜL - EKİM
CİLT: 132 SAYI: 260
SAYFA: 79-90

## Extended Abstract

## Identity Of Continent Or Subject Of International Law

Exposure of state to aggression directly affects the identity and values of its population. As noted, the stronger the identity, the more stable the statehood. The essence of the identity of a subject of international law without continuity is that the identity of the restored state depends on the institution of recognition and the political interests of other states. Although the identity and continuity of the subject of international law depend on the political interests of third countries, there are generally accepted norms in this area. The basis of the identity of the subject of international law is the universally recognized norms of the people's right to self-determination.

State subjectivity in international law is concerned with its identity. If annexation occurs because of threats of aggression or the use of force and violation of other principles in international law, the subjectivity of international law of the state is de facto terminated. If an annexation occurs, the state's subjectivity in international law may not be formally terminated. Thus, if the government of the annexed state continues to be active in exile, the state subjectivity in international law formally retains its existence. As a result, all measures of the new government established by force, including referendums, have no legal significance. The "adaptation" of the people to the annexation regime after a certain period of time does not eliminate the illegality of the process in terms of international law. Therefore, the population of the illegally annexed territory ensures its continent by restoring its state. Here the process of internal self-identification between the previous and the restored one is crucial.

Even in the event of a long-term loss of state, its restoration should not exclude continuity and identity. It is enough that the relevant people have formed the ability to establish a state. Therefore, in the context of the identity and continuity of the state, the issue of time can only have political significance. It has no legal value. There is no specific rule in international law regarding the duration of a claim in respect of the identity and continuity of a state. It is not excluded that during the illegal annexation there will be a change in the state apparatus with the break of the continuity for a long time. However, since the source of power is the people, the creation of state similar to the previous one (identical) depends on the declaration of will.

It is obvious in the Constitutional Acts we have mentioned in the article, the sustainability of the constitutional will of the people is also the basis for the identity of the state subjectivity in international law, which was later restored with the previous state. At the level of international law, it must also ensure that the state's claim for equal status is secured. The constitutional declaration of the relevant state on the identity of an international legal entity must cover all political abuses, and other states must respond to the constitutional declaration on the identity of an international legal entity in the context of the principle of "sovereign equality of states". The article does not specify the identity of the Republic of Azerbaijan in

terms of terminology in the Constitutional Act on the State Independence of the Republic of Azerbaijan of October 18, 1991, as in the Baltic States. Although the Constitutional Act on State Independence of the Republic of Azerbaijan refers to direct succession (art. 2), the general conclusion of the Act is that the modern Republic of Azerbaijan is the successor of the Azerbaijan Democratic Republic, ie at least the concept of continuity less identity comes to mind. Thus, the existence of a “government of exile” may not continue for various reasons (financial, diplomatic, etc.). The political interests of the international community, individual states, protests and objections to the non-recognition of the occupying regime may also give way to loyalty after some time. However, the position of the people, its secret and open political organization, the struggle for independence are the main criteria for the continuity of the state “like him”, if not “in the same year” with all the parameters of the former in the sense of identity. There is no specific rule in international law regarding the duration of a claim in respect of the identity and continuity of a state. If we try to define the criteria in terms of continuity, then: the existence of a “government of exile” and its struggle; negative attitude of the international community, individual states to illegal annexation; and the continued political and military position of the people of the illegally annexed area. The position of the people, its secret and open political organization, the struggle for independence are the main criteria for the continuity of the state “like him”, if not “in the same year” with all the parameters of the former in the sense of identity.

The loss of political independence with the partition of Poland in 1795 and the restoration of statehood in 1918 only 123 years later did not prevent Polish courts from relying on the identity of the previous state as a subject of international law. Although this identity has not been accepted by foreign partners. In another case, Nazi Italy illegally annexed Abyssinia, which was soon rejected by the Allies against the German-Italian alliance. With the liberation of Abyssinia by Britain, the identity of its former subject of international law was accepted. Following World War II, the former status of Abyssinia was fully restored under an agreement between the Allies and Italy. In this case, the legal position of third countries was important for the restoration of the pre-illegal status of Abyssinia and its identity.

The article does not specify the identity of the Republic of Azerbaijan in terms of terminology in the Constitutional Act on the State Independence of the Republic of Azerbaijan of October 18, 1991, as in the Baltic States. Although the Constitutional Act on State Independence of the Republic of Azerbaijan refers to direct succession (art. 2), the conclusion from the general content of the Act is that the modern Republic of Azerbaijan is the successor of the Azerbaijan Democratic Republic.

As a result, if we try to determine the criteria for sustainability, then the existence of a “government of exile” and its political struggle is considered. Here, in addition to showing the negative attitude of the international community to the illegal annexations of individual states, the position (identity) of the population of the continuing politically and militarily occupied territories is once again of particular importance for the sustainability of the state.